***BAKI DÖVLƏT UNİVERSİTETİ***

***«Təsdiq edirəm»***
***Coğrafiya fakultəsinin dekanı***
***_______prof.M.A.Museyibov***

***«___»_________2008-ci il***

# *FİZİKİ COĞRAFİYA KAFEDRASININ 2008-CI İLDƏ YERİNƏ YETİRDİYİ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN*

# *H E S A B A T I*

***B A K I - 2 0 0 8***

## *GİRİŞ*

Fiziki coğrafiya kafedrasının professor-müəllim heyəti «**Azərbaycanın landşaft-ekoloji sistemlərinin antropogen transformasiyası** » problemi üzrə 2008-cı ildə «**Kiçik Qafqazın landşaft-ekoloji sistemlərinin antropogen transformasiyası**» mövzusu üzərində işləmişlər. Hesabat ilində kafedra əməkdaşları **«Kiçik Qafqazın landşaft- ekoloji sistemlərinin antropogen deqradasiyasi dərəcəsinin müəyyənləşdirilməsi**» və «**Kiçik Qafqazın ekogeomorfoloji şəraitinə relyefin təsiri**» mövzularını yerinə yetirmişlər.

Kafedra əməkdaşları tərəfindən 2008-ci ildə 27 elmi məqalə, 1 monoqrafiya, 6 dərslik (VI,VII,VIII,XI siniflər üçün) Azərbaycanın fiziki coğrafiyası» dərsliyi, (VIII sinif, azərbaycan və rus dilində), abituriyentlər üçün 2 vəsait, 4 dərs vəsaiti çap edilmişdir.

Kafedra əməkdaşları hesabat ilində ümummilli lider H.Ə. Əliyevin 85 illik və akademik B.Ə.Budaqovun 80 illik yubileylərinə həsr olunmuş konfransda elmi məruzələrlə çıxış etmişlər.

### *FİZİKİ COĞRAFİYA KAFEDRASININ ŞTAT CƏDVƏLİ VƏ STRUKTURU*

***Gədvəl 1***

| № | Soyadı,adı, atasının adı | Elmi adı, vəzifəsi | Qeyd |
|---|---|---|---|
| 1. | Museyibov Müseyib Ağababa o. | dekan. c.e.d. prof. | |
| 2. | Quliyev Rafik Yaqub o. | c.e.n., dos. | |
| 3. | Ələsgərov Bayram Cavad o. | c.e.d. prof. | 0,5 şt. |
| 4. | Əlizadə Elbrus Kərim o. | c.e.d. | 0,5 şt. |
| 5. | Qəribov Yaqub Əli o. | c.e.n. dos. | |
| 6. | Cərullayev Asəf Şərbət o | k.t.e.n. dos. | |
| 7. | İbrahimov Tahir Oruc o. | c.e.n. dos. | |
| 8. | Qəhrəmanova Tahirə Məlikheydər q. | k.t.e.n.,dos. | |
| 9. | Şamilzadə Tamella Mehdi q. | b/müəl. | |
| 10. | Həsənova Şahnaz Mirqafar q. | b/müəl. | |
| 11. | Abasova Nəzifə Əli q. | b/müəl. | |
| 12. | Rakçeeva İrkən Fatehovna | b/müəl. | |
| 13. | Nəbiyev Əlipaşa Əlibəy o | müəl. | |
| 14. | Həsənəliyeva Ləman Həsən q. | b/lab. | |
| 15. | Məmmədova Aygün Azər q. | b/lab. | |

### *KAFEDRADA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ*

Fiziki coğrafiya kafedrasının əməkdaşları 2008/2009-ci tədris ilində «**Azərbaycanın landşaft-ekoloji sistemlərinin antropogen transformasiyası**»

problemi ilə bağlı Azərbaycanın 1:500.000 miqyaslı landşaft-ekoloji xəritəsi hazır müzakirəyə təqdim edilmişdir. (müəllif dos. Y.Ə.Qəribov)

***Müseyibov M.A.,Şamilzadə T.M., Abasova N.Ə, Həsənova Ş.M.***

2008-cı ildə Azərbaycanın landşaft-ekoloji sistemlərininin antropogen transformasiyası xəritəsi tərtib etməyin elmi-nəzəri əsasları təhlil edilmiş və xəritənin legindası hazırlanmışdır. Həmin elmi-nəzəri təhlil konkret regionların landşaft-ekoloji sistemlərinin antropogen deqradasiyası dərəcəsini müəyyən etməyə, onların transformasiya dərəcəsini aydınlaşdırmağa imkan vermişdir. Bu məqsədlə aerokosmik tədqiqat, çöl marşrutları materialları və mövcud (yeni) informasiya materialları təhlil edilmişdir.

***Quliyev R.Y.,Qəhrəmanova T.M., Rakçeeva İ.F.***

Cari ildə morfometrik göstəricilərə görə dağlıq ərazilərdə ekogeomorfoloji şəraitin, relyefin aparıcı rolu nəzərə alınmaqla, geosistemlərin müasir durumunun gərginliyinin müəyyən olunmasının metod və üsulları yenidən işlənmiş və təkmilləşdirilmişdir. Morfometrik göstəricilərə görə (səthin meyilliyi, yamacların məstliyi, relyefin şaquli və üfüqi parçalanması) relyef tipləri xəritələri tərtib olunmuşdur.

***Qəribov Y.Ə., İbrahimov T.O., Cərullayev A.Ş.***

Müəyyən edilmişdir ki, arid düzənliklərin yarımsəhra, quru-çöl, kolluçəmən, arid seyrək meşə, hidromorf və s. kompleksləri çoxəsrlik antropogen təsirlər nəticəsində müxtəlif modifikasiyalarla əvəz olunmuşdur. Əksər təbii landşaftların antropogenləşmə əmsalı 0,5-0,8 arasında dəyişilir.

Antropogenləşmiş modifikasiyalar insanlar tərəfindən müntəzəm tənzimlənir, müəyyən təsərrüfat funksiyaları yerinə yetirir. Antropogenləşmə dərəcəsinə görə denudasion düzənliklərin təbii kompleksləri qruplaşdırılmış, ekoloji gərginliyin landşaft rayonları müəyyənləşdirilmiş və müvafiq xəritə-sxemlər tərtib olunmuşdur.

***Nəbiyev Ə.Ə.***

Kiçik Qafqazın təbii komplekslərinin geoinformasiya rəqəmsal xəritələrini tərtib edərək, məkan strukturunun mürəkkəbliyi və parçalanmasının izoxətli xəritə modelləri tərtib edilmişdir. Təbii komponentlərin xəritələri əsasında komponent əlaqələrinin modelləri yaradılmışdır. Həmin modellərin təsərrüfat sahələri ilə əlaqələri araşdırılmış və təkliflər hazırlanmışdır. Hər bir təsərrüfat sahələrinin antropogen rəqəmsal xəritə modeli yaradılmışdır.Tərtib edilmiş geoinformasiya xəritələri kompyüterdə Marinfo coğrafi informasiya sistemi proqramı ilə karta-dioqram şəklində çap edilmişdir.

## *FİZİKİ COĞRAFİYA KAFEDRASININ 2008-Cİ İLİN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN*

## *H E S A B A T I*

**Mövzu : "Kiçik Qafqazın ekogeomorfoloji şəraitinə relyefin təsiri"**

Relyef, özünün bir çox xüsusiyyətlərilə landşaftın formalaşmasında, ekoloji şəraitin durumunda əhəmiyyətli rol oynayır. Relyef landşafta və ekoloji şəraitə, həm keyfiyyət, həm də kəmiyyət göstəriciləri vasitəsilə təsir edir, dağlıq ölkələrdə isə ekoloji şəraiti keyfiyyət və kəmiyyət baxımından müəyyən edir. Relyefin bütün keyfiyyət göstəriciləri – mənşəyi, yaşı, morfolojisi morfostrukturu və s. xassələri öz əksini bütünlüklə, bu və ya digər şəkildə onun morfometrik göstəricilərində tapırlar. Bu səbəbdən də landşaftın və ekoloji şəraitin gərginliyinin və ya komfortluğunun (rahatlığının) müəyyən olunmasında relyefin qiymətləndirilməsi morfometrik göstəricilərə əsasən aparılmışdır.

Ekogeomorfoloji şəraitin formalarşmasını müəyyən edən morfometrik göstəricilərə ərazinin mütləq və nisbı yüksəkliyi, səthin (yamacların) baxarlığı və üfqi parçalanması aiddir. Sadalanan morfometrik ünsürlərdən səthin meylli, yamacların baxarlığı, üfqi və şaquli parçalanma xəritələri 1:100.000 miqyaslı topoxəritələr əsasında tərtib olunmuşdur.

Səthin meylliyi, baxarlığı, üfqi və şaquli parçalanma xəritələrini n ilkin areallarının (müvafiq olaraq morfometrik göstəricilərin) məkanda paylanma qanunauyğunluğuna müvafiq, daha geniş əraziləri əhatə edən areallar ayrılmışdır. Bu areallar relyefin həmin morfometrik göstəricilərə görə ayrılmış tiplərinin areallarıdır.

Ekogeomorfoloji gərginliyin qiymətləndirilməsində məhz relyefin morfometrik göstəricilərə görə ayrılmış tiplərinə verilmiş ballardan istifadə olunmuşdur.Digər morfometrik relyef tiplərinə verilən qiymətlər səthin meyllik göstəricilərinə görə ayılmış relyef tiplərinin arealları daxilində cəmlənmişdir. Ümumi gərginlik qiymətlərinə, hər biri maksimum on bal olmaqla (maksimum 50 bal) səthin meylliyi, baxarlığı, parçalanması və yüksəkliyin göstəriciləri daxil edilmişdir.

Ekogeomorfoloji gərginlik xəritələri Şahdağ-Murovdağ sisteminin şimal yamacları, Qarabağ silsiləsi və Naxçıvan Respublikası əraziləri üçün tərtib olunmuşdur. Tərtər çayının hövzəsi və Qarabağ vulkanik yaylası əraziləri üçün isə ilkin morfometrik xəritələr tərtib olunmuş və ümumi ekogeomorfoloji gərginlik xəritələrinin tərtibatında istifadə edilməsidir.

Morfometrik əsasda tərtib olunmuş ekogeomorfolojoi gərginlik xəritələri landşaftların deqradasiyasiyası və transformasiyasının və eləcədə, onların ekoloji

durumunun qiymətləndirilməsində kəmiyyət göstəricilərinə əsaslanan əhəmiyyətli meyar kimi istifadə olunacaq.

**Mövzu : «Kiçik Qafqazın ekoloji sistemlərinin antropogen deqradasiya dərəcəsinin müəyyənləşdirilməsi»**

Kiçik Qafqazın təbii landşaftlarının ekoloji durumunun qiymətləndirilməsi məqsədi ilə kosmik şəkillərdən əldə edilən informasiyalar təhlil edilmiş, regionun ekoloji xüsusiyyətlərinin öyrənilməsi əsasında torpaq, bitki örtüyü, iqlim şəraiti, səth və yeraltı suları, relyef xüsusiyyətləri, hidrogeoloji şəraiti öyrənilşmişdir.

Ekosistemlərin antropogen deqradasiya dərəcəsini müəyyənləşdirməkdən ötrü «Kiçik Qafqazın təbii landşaftlarının antropogen transformasiyası» xəritəsi tərtib edilmişdir. Həmin xəritədə təbii landşaftların həm antropogen transformasiya dərəcəsi, həm də deqradasiyası öz əksini tapır.

Təbii komplekslərin dəyişilmə və antropogenləşmə dərəcələrini əks etdirən xəritədə regionun bütün ekosistemləri 5 kateqoriyaya ayrılır:

1. İntensiv istifadə olunan və əsaslı dəyişilmiş komplekslər dağətəyi allüvial, allüvial-prolüvial, prolüvial-delüvial düzənliklərin meşədən sonrakı quru çöllərini, meşə-çöllərini əhatə edir.

2. Qeyri müntəzəm istifadə olunan dəmyə və epizodik suvarma şəraitində mənimsənilən komplekslərə dağarası çökəkliklərin, alçaq dağlığın meşədən sonrakı meşə-çöl, çöl, arid seyrək meşələri aiddir. Bozqır çöllərin mənimsənilməsi dağ yamaclarının yuyulmasını, parçalanmasını, arid komplekslərin daha da genişlənməsini sürətləndirir.

3. Qeyri-müntəzəm istifadə olunan otlaq və biçənək kateqoriyası bir neçə qrupa ayrılır. Arid-denudasion alçaq dağlığın otlaq və biçənəkləri (Həkəri dərəsi,Diridağ,Teydağ,Xiyarət və s.), yüksək dağlığın qeyri-müntəzəm istifadə olunan subalp və alp çəmənlərinin yay otlaqları və biçənəkləri (Şahdağ, Susuzluq, Şərq Göyçə,Qarabağ vulkan yaylası,Murovdağ, Qarabağ dağları və s.), qeyri-müntəzəm və epizodik istifadə olunan meşə, meşə-çəmən kompleksləri. Antropogen deqradasiyanın intensivliyi təbii komplekslərin xırda areallara ayrılmasında, dağ yamaclarının çılpaqlaşmasında, səthin yuyulmasında, yarğan-qobu eroziyasının inkişafında, meşələrin seyrəkləşməsində, kolluqların, meşə-çöllərin genişlənməsində özünü büruzə verir.

4. Təkrar törəmə təbii-antropogen landşaft madifikasiyaları deqradasiyanın bilavasitə indiqatorlarıdır. Bu tip törəmə vahidlərə təkrar çöllər (bozqır çöllər), meşə-çöllər, kollu-çöllər, çəmən-çöllər və s. aiddir. Həddən artıq otarma nəticəsində cılpaqlaşmış, parçalanmış qayalıqlar, suayrıcılar, zirvələr də bu tipə daxildir.

5. Texnogen modifikasiyalar bir neçə qrupa ayrılır. Meliorativ tədbirlərlə bağlı yaranan su anbarları, su ötürücüsü, drükerlər, gəldqacıran, sənaye və dağ-mədən işləri ilə yaranan karxanalar, terrikonlar, pozulmuş, çirklənmiş komplekslər (Daşkəsən, Gədəbəy və s.), yol-tikinti, boru-kəmər və digər infrastukturlarla bağlı olan texnogen modifikasiyalar daxildir.

## *XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR*

1.Hesabat ilində BDU Coğrafiya fakültəsi fiziki coğrafiya kafedrası, Tbilisi Dövlət Universitetinin Coğrafiya fakültəsində nəşr edilmiş «Cənubi Qafqaz landşaftlarının antropogen transformasiyası» monoqrafiyasının həmmüəllifidir. Azərbaycandan iştirakçılar - akademik Budaqov B.Ə., prof. Müseyibov M.A. və AMEA-nın müxbir üzvü Məmmədov R.M. olmuşdur.

## *TƏHSİLDƏ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN TƏTBİQİ*

Kafedranın əməkdaşlarından prof.M.A.Museyibov, c.e.d. E K. Əlizadə, dos.Y.Ə.Qəribov və b. hesabat dövründə Respublika Təhsil Nazirliyinin Coğrafiya üzrə Metodik Şurasının, Respublika Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının, Coğrafiya fakultəsinin elmi şurasının iclaslarında yaxından iştirak etmiş, ali və orta məktəb üçün yeni dərsliklər, proqramlar, dərs vəsaitlər, metodik göstərişlər yazılmasında iştirak etmişlər.

## *PATENT VƏ İNFORMASİYA İŞLƏRİ*

Kafedranın əməkdaşlarının patent və informasiya işləri yoxdur.

## *FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI*

2008-ci ilin may ayının 31-də ümümmilli lider H.Ə.Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr olunmuş «Cografiyanın müasir problemləri » mövzusunda Elmi konfrans keçirilmişdir.

Hesabat ilində akademik B.Ə.Budaqovun 80 illik yubileyinə həsr olunmuş «Ekstremal təbii dağıdıcı hadisələr və onların yaratdığı ekoloji problemlər» mövzusunda, beynəlxalq Elmi konfrans keçirilmişdir. Bu konfranslarda kafedranın əməkdaşları elmi məruzələrlə çıxış etmişlər. Elmi məqalələr Coğrafiya Cəmiyyətinin əsərlərində, konfransın materialları toplusunda çap olunmuşdur.

## *FAKÜLTƏDƏ ELMİ VƏ PEDOQOJİ KADRLARIN HAZIRLANMASI*

Hazırda kafedranın iki əyani və üç qiyabi (İran vətəndaşı) aspiranı, 4 dissertantı vardır. Kafedrada magistratura pilləsində iki ixtisas – «Geomorfologiya» və «Landşaftşünaslıq» üzrə kadr hazırlanır.

Kafedranın dosenti Y.Ə.Qəribov doktorouq dissertasiyasını tamamlamış və müzakirəyə təqdim etmişdir.

## *DİSSERTASİYA MÜDAFİƏSİ VƏ DİSSERTASİYA ŞURALARININ FƏALİYYƏTİ*

Hesabat ilində kafedranın dissertantlarından - geodeziya və kartoqrafiya kafedrasının b/lab. N.S. İsmayılovanın «Samur-Dəvəçi ovalığı və Qusar maili düzənliyinin müasir aqroirriqasiya landşaftları və onların ekoloji problemləri» mövzusunda dissertasiya işini müdafiə etmişdir. Dissertant T.Y. Verdiyevanın «Kiçik Qafqazın şimal-şərq hissəsi landşaftlarının təbii-rekreasiya potensialı və onun qiymətləndirilməsi» mövzusunda dissertasiya işi kafedranın seminarında müzakirə edilmişdir.

Bununla yanaşı kafedranın dosenti Y.Ə.Qəribovun «Azərbaycanın müasir landşaftlarının antropogen transformasiyası və optimallaşdırılması problemləri» mövzusunda doktorluq işi müzakirəyə təqdim edilmişdir.

## *TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRANTLARIN) ELMİ-TƏDQİQAT İŞLƏRİ*

Hesabat ilində Coğafiya fakültəsində Tələbə Elmi Cəmiyyəti xətti ilə kafedra əməkdaşlarının rəhbərliyi altında tələbələr Coğrafiya fakültəsinin magistrant və bakalavrların XI elmi konfransında bir sıra maraqlı elmi məruzələrlə çıxış etmişlər. Aşağıda göstərilən məruzələr konfransın materialları toplusunda çap olunmuşdur.

1. İskəndərova Aytən, II kurs, magistr
   «Böyük Qafqazın cənub-şərq yamacı landşaftlarının ekogeokimyəvi xüsusiyyətləri»

2. Kazımova Esmira, II kurs, magistr
   «Kiçik Qafqazın şimal-şərq yamacı təbii landşaftlarının antropogen dəyişməsi»

3. Rusadze Mziya, II kurs, magistr
   1. «Геоэкологическая характеристика береговой зоны Абшерон-Гобустанского района»

2. «Рекреационный потенциал северного побережья Абшеронского полуострова»

4. Səmədov Lətif, II kurs, qiyabi magistr

1.«Стабильная экогеоморфологическая ситуация – гарант экологического равновесия на северо-восточном склоне Большого Кавказа»

2. «Эколого-геоморфологические особенности Северо-Восточного склона Большого Кавказа»

5. Şaxmuradova Səriyyə, II kurs, magistr

1.«Пространственное распределение показателей углов наклона поверхности рельефа Нахичеванской АР»

2. «Процесс опустынивания Нахичеванской АР»

## *ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR*

Azərbaycanda landşaft-ekoloji sistemlərin təbii, təbii-antropogen deqradasiyası və transformasıyasının proqnozunu və gələcəkdə bu prosesin urbanizasiya prosesinə, iqtisadiyyata, xüsusilə kənd təsərrüfat istehsalına təsiri və bununla əlaqədar yaranan problemlər mövzu üzərində iş başa çatdıqda öz əksini tapacaqdır.

Kafedradanın elmi-tədqiqat işləri yerinə yetirilməsi üçün çöl tədqiqatlarının aparılması vacibdir, lakin bunun üçün şərait yoxdur. Beynəlxalq Elmi konfranslarda iştirak etmək imkanı yoxdur.

Kafedraya dəftərxana ləvazimatı verilmir və İnternet şəbəkəsinə qoşulmamışdır.

**FİZİKİ COĞRAFİYA KAFEDRASININ ƏMƏKDAŞLARININ**
**2008-Cİ İL DƏ NƏŞR OLUNMUŞ ƏSƏRLƏRİN SİYAHİSİ**

***ЪЯДВЯЛ 2***

| № | Adı, atasının adı və soyadı | Nəşr edilən əsərin adı | Nəşrin adı, ili, şəhər | Çap vərəqi | Həmmüəlliflər |
|---|---|---|---|---|---|
| 1. | Prof. Museyibov Museyib Ağababa o. | Azərbaycan regionlarının landşaft-ekoloji xüsusiyyətləri. | Coğrafiya Cəmiyyətinin əsərləri, «Coğrafiyanın müasir problemləri» H.Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr olunmuş konfransın materialları, BDU filialı, Bakı, 2008, | 31-37 | |
| 2 | Prof. Museyibov Museyib Ağababa o. | Антропогенная трансформация природной среды Южного Кавказа (монография) | Tbilisi, 2008 | 28 ç/v | Группа авторов из Грузии, Азербайджана, Будагов Б.А., Мамедов Р.М., Мусеибов М.А.) |
| 3 | Prof. Museyibov Museyib Ağababa o. | Coğrafiya (abituriyentlər üçün proqram toplusu) | TQDK, «Abituriyent» № 1, 2008 | 23-27 | |
| 4. | Prof. Museyibov Museyib Ağababa o. | Coğrafiya (abiturientlər üçün proqram toplusu) | TQDK, «Abiturient» № 1, 2008 | 28-32 | |
| 5. | dos. Quliyev Rafiq Yaqub o | Talışın ekogeomorfoloji şəraitinin gərginliyinin morfometrik göstəriciləri | «BDU Xəbərləri» №1, Bakı,2008 | 162-167 | |
| 6. | dos. Quliyev Rafiq Yaqub o | Böyük Qafqazın şimal-şərq yamacının ekogeomorfoloji gərginliyinin morfometrik göstəricilərinə görə qiymətləndirilməsi | «BDU Xəbərləri» №3, Bakı,2008 | 184-190 | |
| 7. | dos. Quliyev Rafiq Yaqub o | Углы наклона поверхности рельефа и экогеоморфологическая напряженность северного склона Юго-Восточного Кавказа | «BDU Xəbərləri» №4,Bakı, 2008 | | |
| 8. | dos. Qəribov Yaqub Əli o. | Cənub-Şərqi Qafqazın şimal-şərq yamacı aqroirriqasiya antropogen deqradasiyası | «BDU Xəbərləri» №1 , Bakı, 2008, | 190-195 | |
| 9. | dos. Qəribov Yaqub Əli o. | Cənub-Şərqi Qafqazın geosistemlərinin təbii-antropogen deqradasiyası | Coğrafiya Cəmiyyətinin əsərləri, «Ekstremal təbii dağıdıcı hadisələr və onların yaratdığı ekoloji problemlər», XIII, Bakı, 2008 | 128-135 | |

| № | Adı, atasının adı və soyadı | Nəşr edilən əsərin adı | Nəşrin adı, ili, şəhər | Çap vərəqi | Həmmüəlliflər |
|---|---|---|---|---|---|
| 10. | dos. Qəribov Yaqub Əli o. | Azərbaycan Respublikasının dağətəyi və alçaq dağ yamaclarında dəmyə aqrokom-plekslərin formalaşma xüsusiyyətləri | Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, «Azərbaycan təbiətinin ekocoğrafi problemləri», XII cild, Bakı, 2008 | 82-87 | |
| 11. | dos. Qəribov Yaqub Əli o. | Kiçik Qafqazın şimal-şərq yamasında qey-ri-müntəzəm təsərrüfat təsirlərinə məruz qalan komplekslərin ortimallaşdırılması | Coğrafiya Cəmiyyətinin əsərləri, «Coğ-rafiyanın müasir problemləri» H.Əliye-vin anadan olmasının 85 illik yubileyinə həsr olunmuş konfransın materialları, BDU filialı, Bakı, 2008 | 116-120 | |
| 12. | dos. Qəribov Yaqub Əli o. | Вопросы урегулирования процессов фор-мирования агроландшафтов Азербайджана | Географические проблемы устойчего развития. Теория и практика. Матер. Международ. научн. конф. посвящ. 70 летию института Географии АН СНЗМО ПК Алма-Ата, Казахыстан, 27-29 авгу-ста 2008 | 116-122 | İsmayılova N.S. |
| 13. | dos .Qəhrəmanova Tahirə Məlikheydər q. | Геоэкологическая напряженнност Примор-ских геосистем под влиянием ветровой эрозии | «BDU Xəbərləri», №2, 2008 | 197-200 | |
| 14. | Dos. İbrahimov Tahir Oruc o. | Göycənin toponimləri (Pəmbək kəndi tim-salında) | Coğrafiya Cəmiyyətinin əsərləri, «Ekst-remal təbii dağıdıcı hadisələr və onların yaratdığı ekoloji problemlər», XIII, Bakı, 2008 | 521-523 | Bayramov M.M. |
| 15. | Dos. İbrahimov Tahir Oruc o. | Göycənin toponimləri (Ağbulaq kəndi tim-salında) | Coğrafiya Cəmiyyətinin əsərləri, «Azər-baycan təbiətinin ekocoğrafi problemlə-ri», XII cild, Bakı, 2008 | 498-502 | İsmayıl E. |
| 16. | B/müəl. Şamilzadə Tamilla Mehti q. | Рекреационные ресурсы и техногенное за-грязнение Каспийского моря | Coğrafiya Cəmiyyətinin əsərləri, «Azər-baycan təbiətinin ekocoğrafi problemlə-ri», XII cild, Bakı, 2008 | 727-733 | Rakçeeva İ.F |

| № | Adı, atasının adı və soyadı | Nəşr edilən əsərin adı | Nəşrin adı, ili, şəhər | Çap vərəqi | Həmmüəlliflər |
|---|---|---|---|---|---|
| 17. | B/müəl. Şamilzadə Tamilla Mehti q. | Тяжелые металлы в почвах и растительности лесных ландшафтов среднегорья Кусарского района | Coğrafiya Cəmiyyətinin əsərləri, «Coğrafiyanın müasir problemləri» H.Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr olunmuş konfransın materialları, BDU filialı, Bakı, 2008 | 147-151 | Бабаев Ф.М., Абасова Н.А., Гасаналиева Л.Г. |
| 18. | B/müəl. Şamilzadə Tamilla Mehti q. | Эколого-геохимическая характеристика центральной части Абшеронского полуострова | Coğrafiya Cəmiyyətinin əsərləri, «Ekstremal təbii dağıdıcı hadisələr və onların yaratdığı ekoloji problemlər», XIII, Bakı, 2008, | 187-193 | Бабаев Ф.М., Абасова Н.А., Гасаналиева Л.Г. |
| 19. | B/müəl.Abasova Nəzifə Əli q | Тяжелые металлы в почвах и растительности лесных ландшафтов среднегорья Кусарского района | Coğrafiya Cəmiyyətinin əsərləri, «Coğrafiyanın müasir problemləri» H.Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr olunmuş konfransın materialları, BDU filialı, Bakı, 2008, | 147-151 | Бабаев Ф.М., Шамилзаде Т.М. Гасаналиева Л.Г. |
| 20. | B/müəl.Abasova Nəzifə Əli q | Эколого-геохимическая характеристика центральной части Абшеронского полуострова | Coğrafiya Cəmiyyətinin əsərləri, «Ekstremal təbii dağıdıcı hadisələr və onların yaratdığı ekoloji problemlər», XIII, Bakı, 2008, | 187-193 | Бабаев Ф.М., Шамилзаде Т.М., Гасаналиева Л.Г. |
| 21. | Müəl. Nəbiyev Əlipaşa Əlibəy o. | Təsərrüfat və təbii şəraitin əlaqəsinin çoxölçülü xəritə modellərinin tərtibi | Coğrafiya Cəmiyyətinin əsərləri, «Coğrafiyanın müasir problemləri» H.Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr olunmuş konfransın materialları, BDU filialı, Bakı, 2008 | 442-444 | |
| 22. | B/müəl. (Aktoprak) Rakçeeva İrkən Fatehovna | Рекреационные ресурсы и техногенное загрязнение Каспийского моря | Coğrafiya Cəmiyyətinin əsərləri, «Azərbaycan təbiətinin ekocoğrafi problemləri», XII cild, Bakı, 2008 | 727-733 | Şamilzadə T.M. |
| 23. | b/lab. Həsənəliyeva Ləman Həsən q. | Тяжелые металлы в почвах и растительности лесных ландшафтов среднегорья Кусарского района | Coğrafiya Cəmiyyətinin əsərləri, «Coğrafiyanın müasir problemləri» H.Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr olunmuş konfransın materialları, BDU filialı, Bakı, 2008 | 147-151 | Бабаев Ф.М., Шамилзаде Т.М. Абасова Н.А. |

| № | Adı, atasının adı və soyadı | Nəşr edilən əsərin adı | Nəşrin adı, ili, şəhər | Çap vərəqi | |
|---|---|---|---|---|---|
| 24. | b/lab. Həsənəliyeva Ləman Həsən q. | Эколого-геохимическая характеристика центральной части Абшеронского полуострова | Coğrafiya Cəmiyyətinin əsərləri, «Ekstremal təbii dağıdıcı hadisələr və onların yaratdığı ekoloji problemlər», XIII, Bakı, 2008 | 187-193 | Бабаев Ф.М., Шамилзаде Т.М. Абасова Н.А. |
| 25. | b/lab. Həsənəliyeva Ləman Həsən q. | Böyük Qafqazın şimal-şərq yamacı geosistemlərində əhalinin yüksəklik qurşaqları üzrə yerləşməsi qanunauyğunluqları | Coğrafiya Cəmiyyətinin əsərləri, «Coğrafiyanın müasir problemləri» H.Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr olunmuş konfransın materialları, XIII, Bakı, 2008 | 314-318 | |
| 26. | b/lab. Həsənəliyeva Ləman Həsən q. | Böyük Qafqazın şimal-şərq yamacının torpaqlarının deqradasiyası | Coğrafiya Cəmiyyətinin əsərləri, «Azərbaycan təbiətinin ekocoğrafi problemləri», XII cild, Bakı, 2008 | 645-650 | |
| 27. | b/lab.Məmmədova Aygün Azər q. | Müasir landşaftların formalaşmasında Böyük Qafqazın cənub-şərq yamacı relyefinin differensiasiya xüsusiyyətlərinin təsiri. | Coğrafiya Cəmiyyətinin əsərləri, «Coğrafiyanın müasir problemləri» H.Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr olunmuş konfransın materialları, BDU filialı, Bakı, 2008, | 229-233 | |

**FİZİKİ COĞRAFİYA KAFEDRASININ ƏMƏKDAŞLARININ**
**2008-Cİ İL DƏ NƏŞR OLUNMUŞ DƏRSLİK, DƏRS VƏSAİTİ, MONOQRAFİYA VƏ PROQRAMLARIN SİYAHİSİ.**

**C Ə D V Ə L 3**

| № | Adı, atasının adı və soyadı | Nəşr edilən əsərin adı | Nəşrin adı, ili, Şəhər | Çap vərəqi | Müştərək müəlliflər |
|---|---|---|---|---|---|
| 1. | Museyibov M.A | География (учебное пособие для абитуриентов, учащихся старших классов и преподавателей) | Abiturient,DTQK, 2008 | 29,25 ç/v | Əlizadə E.K., Daşdiyev R.H., Fətullayev H.Y., Eyyubov N.H.və b. |
| 2. | Museyibov M.A | Антропогенная трансформация природной среды Южного Кавказа (monoqrafiya) | Tbilisi, 2008 | 28 ç/v | Группа авторов из Грузии, Азербайджана (Будагов Б.А., Мамедов Р.М., Мусеибов М.А.) |
| 3. | Museyibov M.A | Türk dünyasının coğrafiyası. XI sinif. | Təhsil nəş-tı, Bakı, 2008 | 9 ç/v | Əfəndiyev V.Ə., Seyfullayeva N.S.. |
| 4. | Museyibov M.A | Coğrafiya (abiturientlər üçün proqramm toplusu) | TQDK, «Abiturient» № 1, 2008 | 23-27 | |
| 5. | Museyibov M.A | Coğrafiya (abiturientlər üçün proqramm toplusu) | TQDK, «Abiturient» № 1, 2008 | 28-32 | |
| 6. | Qəribov Y.Ə. | Azərbaycan Respublikasının fiziki coğrafiyası (orta ümümtəhsil məktəbləri üçün dərslik, VIII sinif) | Təhsil, Bakı,2008 | 8,25 ç/v | Budaqov B.Ə. |
| 7. | Qəribov Y.Ə. | Физическая география Азербайджанской Республики ( orta ümümtəhsil məktəbləri üçün dərslik, VIII sinif) | Təhsil, Bakı,2007, | 8,5 ç/v | Budaqov B.Ə. |
| 8. | İbrahimov T.O. | Şirvan dövlət qoruğu | «Müəllim» nəşr., Bakı, 2008 | səh.106 | |
| 9. | İbrahimov T.O. | İlisu dövlət qoruğu | «Müəllim» nəşr., Bakı, 2008 | səh.94 | |
| 10. | İbrahimov T.O. | Zaqatala dövlət qoruğu | «Müəllim» nəşr., Bakı, 2008 | səh.136 | |

| M.A. MÜSEYİBOVUN REDAKTƏSİ İLƏ | | | | | |
|---|---|---|---|---|---|
| 1. | Museyibov M.A | География (учебное пособие для абитуриентов, учащихся старших классов и преподавателей) | ABİTURİENT, DTQK, Bakı, 2008 | 29,25 ç/v | Əlizadə E.K., Daşdiyev R.H., Fətullayev H.Y., Eyyubov N.H.və b. |
| 2. | Museyibov M.A | Ümumi fiziki coğrafiya (VI sinif) | Azərbaycan nəş-tı, Bakı, 2008 | 10 ç/v | Əlizadə E.K., Seyfullayeva N.S. |
| 3. | Museyibov M.A | Materiklərın fiziki coğrafiyası (orta ümümtəhsil məktəbləri üçün dərslik, VII sinif) | Azərbaycan nəş-tı, Bakı, 2008 | 10 ç/v | Alxasov O. və b. |
| 4. | Museyibov M.A | Azərbaycan Respublikasının fiziki coğrafiyası (or-ta ümümtəhsil məktəbləri üçün dərslik,VIII sinif ) | Təhsil, Bakı,2008, | 8,5 ç/v | Budaqov B.Ə., Qəribov Y.Ə. |
| 5. | Museyibov M.A | Azərbaycanın iqtisadi coğrafiyası (VIII sinif ) | Təhsil, Bakı,2008, | 8,5 ç/v | Budaqov B.Ə., Qəribov Y.Ə. |
| 6. | Museyibov M.A | Физическая география Азербайджанской Респуб-лики (VIII sinif) | Təhsil nəş-tı, Bakı,2008 | 9 ç/v | Badaqov B.Ə., Qəribov Y.Ə. |